**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI SƏDRİNİN**
**yanında keçirilmiş iclasın**
**QƏRARI**

**Bakı şəhəri** **№ 1/2** **3 iyul 2013-cü il**

**Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən sərbəst auditorlar tərəfindən 2013-cü ilin I rübü üzrə fəaliyyətinə dair təqdim etdikləri gündəliklərin təhlili və müvafiq icmalın hazırlanması barədə**

Auditorlar Palatasının 2013-2015-ci illər üzrə iş planının "Sərbəst auditorların 2013-cü il üzrə təqdim edilmiş gündəliklərin təhlili və tövsiyələrin hazırlanması" barədə 1.10-cu bəndinə uyğun olaraq Analitik informasiya və təhlil şöbəsinin (R.Cəfərli) hazırladığı "Sərbəst auditorlar tərəfindən 2013-cü ilin I rübü üzrə təqdim etdikləri gündəliklərin təhlili və müvafiq icmal" barədə məruzəni müzakirə edərək

**QƏRARA ALINIR:**

1. "Sərbəst auditorlar tərəfindən 2013-cü ilin I rübü üzrə təqdim etdikləri gündəliklərin təhlili və müvafiq icmal" nəzərə alınsın (əlavə olunur).
2. 2013-cü ilin I rübü üzrə təqdim edilmiş gündəliklərin təhlili nəticəsində məlum olmuşdur ki, bir sıra sərbəst auditorlar - Nağıyeva Cəmilə Cabirovna, Qurbanlı Ziya Tofiq oğlu və Əliyev Elçin Məmmədəli oğlu tərəfindən 2013-cü ilin I rübü üzrə fəaliyyətlərinə dair gündəliklər təqdim olunmaması onların nəzərinə çatdırılsın və belə hallara bir daha yol verilməməsi onlardan tələb olunsun.
3. Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, bu qərar Palatanın internet saytında yerləşdirilsin.

**İCLASIN SƏDRİ** **V.NOVRUZOV**

**İCLASIN KATİBİ** **A.KƏRİMOV**